Ədəbiyyat qəzeti

# İsmayıl Şıxlı haqqında

## Həyat hikmət və dəyər kimi

*Heydər Qasımlının nasir ömrü sakit, epik axarlıdır. O, Qazaxda yaşayır, hərdənbir paytaxta təşrif buyurur. Tənqidçilərin gözü qabağında, yazıçı məclislərində az görünməsi təbii ki, ədəbi məkanda onun yazıçı obrazının yaranmasına müəyyən qədər təsir göstərmişdir.*

*Hər yazıçı öz taleyini seçir...*

*Bir vaxtlar İsmayıl Şıxlının zəhmi (müəllif bu haqda böyük yazıçımızla bağlı xatirələrind söhbət açır), ədəbi orqanlarda işləyənlərin iddaları çoxbilmişliyi onu bir qədər ehtiyatlı dav ranmağa vadar etmişdir. Mən H.Qasımlının ayrı-ayrı hekayə və povestlərini oxumuşdum hardasa sözünün siqlətini, miqyasını bilirdim.*

*"Qanlı papaq" romanını oxuyarkən qənaətlərim dəyişdi. Bu roman genetik yaddaşın artıq az qala unudulmaqda olan "şərti epik təhkiyə" refleksini oyatdı. Hər cür əllaməçiliko uzaq, son dərəcə təbii (təbii dedim, yadıma "Qanlı papaq" romanında ustalıqla təsvir e miş təbiət lövhələri düşdü.Roman haqda ayrıca bir esse yazmışam, ona görə də bu məsə ləyə bir daha qayıtmıram) və poetik nəsr nümunəsi, təəssüf ki, indi kitab oxumağı yadırğa mış geniş oxucu kütləsinə gedib çatmır və təbliğ olunmur. Bu roman etnik və estetik hadisə olan Azərbaycan bəyliyinin (kişiliyinin) dramatik (faciəli) taleyi haqqında epik rekviyemdir. Heydər Qasımlının əsərlərinin "dəyər zamanı" mütləq keçmişdir.*

*Yaxşı kişilərin (eləcə də İsmayıl Şıxlının) zamanıdır.*

**Rüstəm KAMAL**

*f. e. d., dosent*

## Qısa tanışlıq

Hörmətli oxucu! Çoxlarını belə bir sual düşündürür - haqları da var - İsmayıl Şıxlı Kosalardandır, yoxsa Şıxlıdan? Əgər Şıxlıdandırsa, onda nə üçün rəhmətlik ata-anası,doğma bacıları Kosalar kənd qəbiristanlığında uyuyur? Bu kənddəndirsə,ləqəbini niyə "Şıxlı" götürüb? İsmayıl Qəhrəman oğlu Şıxlinski Şıxlı 1922-ci ildə Şıxlı kəndində, "Ağalıq" yurdunda, bəy ailəsində doğulub.

1919-cu ildə Şahismayıl adlı qardaşı doğulub və cəmi iki il yaşayıb.

Kitablarda, qəzet və jurnallarda İsmayıl Şıxlı 1919-cu ildə doğulmuş kimi verilib.Cəbhəyə gedəndə də həmin təvəllüdlə yola düşüb. Doğmaları bu yaş məsələsini dillərinə gətirəndə belə deyib:

- Nə fərqi var. Əvvəl-axır cəbhəyə getməliyəm. Onu da yaxşı bilirəm ki,ağa balası kimi məni cərimə batalyonuna göndərəcəklər.

Mən bu döyüşdə ya ölməliyəm, ya da ki, nəslimin adını ucaltmalıyam.

...1904-cü ildə Qori Müəllimlər Seminariyasını bitirən Qəhrəman Şıxlinski Qazax rayonunun Kəmərli, Qaymaqlı, Çaylı, Qarapapaq kəndlərində müəllim kimi fəaliyyət göstərir. Özü harada işləyibsə ailəsi də onunla birlikdə olub.

Qəhrəman Şıxlinskinin bacısı Teybə xanım 1924-cü ilə kimi öz əmizadəsi Abdulla ağa Şıxlinskidə ərdə olub. Ondan bir qızı dünyaya gəlib. Şahnisə - yəni mənim anam.

1925-ci ildə Teybə xanım Kosalar kəndində sayılıb-seçilən Allahyar koxa ilə ailə qurur...

Bir yandan ağalıq yurdunun dağılması,- doğmalarını itirməsi, bir yandan da hər addımbaşı izlənməsi Qəhrəman Şıxlinskini bərk sarsıtsa da, səmimi və halal insan, bacarıqlı pedaqoq kimi hər yerdə özünə hörmət qazana bilir. Təbiətin mülayim, xeyirxah, dünyanın bicliyindən, oğru-əyriliyindən tamamilə bixəbər olan Qəhrəman Şıxlınski, nəhayət ki, Kosalar kəndində məskən salır və ömürlük bu kənddə qalır. Çünki onun bu kənddə doğma bacısı yaşayırdı. Bir müddət o bacısı evində - Kosalarda mötəbər kişilərdən biri sayılan Qaranın oğlu İsmayılın mül-

kündə yaşayır. Ailədə uşaqların sayı artandan sonra ona özünün işlədiyi məktəb binasında ailəsi üçün ikigöz otaq ayırırlar. Ən nəhayət, Qəhrəman müəllimə Kosalar kəndinin "Aşağı oba"sı səmtdən ev tikdirmək üçün həyatyanı sahə verirlər.

1928-ci ildə Teybə xanımın Allahyar koxadan bir oğlu olur. Bu vaxt Qəhrəman Şıxlinskinin həyat yoldaşı baldızına belə deyir:

- Ay Teybə, dayıoğlu, bibioğlu dediyin qardaşdır. İsmayılımız var. Deyirəm bu uşağın da adını İsmeyil qoyaq.

Belə də olur. İllər keçir. İsmeyil İsmayılın bacısı ilə, yəni dayısı qızı Həbibə xanımla ailə həyatı qurur.

İsmayıl Şıxlını sonralar da bu kəndə bağlayan, yay istirahət günlərini burada keçirməsinə, dünyanın çox istirahət zonalarından Kosalar kəndini üstün tutmasına səbəb məhz bacısının burada yaşaması idi. Mən həyatda çox dayıoğlu, bibiqızı görmüşəm. Amma anam kimi dayıoğlu istəyən görməmişəm. Sonralar böyüyüb yaşa dolanda bu istəyin əsas səbəbini anamın bu kənddə qərib olmasında gördüm. Ata yurdu çoxdan dağılıb. Ataqardaş, əzizləri bir gecənin içində gedər-gəlməzə göndərilib. Həyat yoldaşı müharibəyə gedib, qayıtmayıb. Vur-tut ona qardaşı İsmeyil, Qəhrəman dayısı, bir də onun üçün üç balası qalmışdı.

# xatirələrim

Anam hər gün "Aşağı obaya" gedib baş çəkərdi. Deyərdi ki, dayımı görməyəndə elə bilirəm ağalıq yurdunun bərbad edilən günüdür.

Bəlkə elə buna görə imiş ki, mən orta məktəbin 9-cu sinfində bilmişəm ki, İsmayıl Şıxlı anamın qardaşı yox, dayısıoğlu imiş.

Gözümü açandan, dilim söz tutandan İsmayıl Şıxlıya "İsmayıl dayı", Qəhrəman Şıxlıya isə "Qəhrəman baba" demişəm. Zənnimcə, möhtərəm oxucu məni anlayar və xatirələrimdə İsmayıl dayı sözünə görə məni qınamazlar.

## Kaş onu belə görməyəydim...

Orta məktəbdə oxuyurdum. Yay tətili idi. Doqqazımızda dayanmışdım. Bir də baxdım ki, İsmayıl dayı iki nəfərlə yoldan ötüb keçir.

Sən demə bunlardan biri İsa Hüseynov, o biri isə Aslan Aslanov imiş. Məni görəndə İsmayıl dayı:

- Yoldaş müxbir, istəyirsən gəl, bizə qoşul (O vaxtlar yerli qəzetdə məqalələrim dərc olunurdu. Onun bundan xəbəri vardı).

Mənə elə gəldi ki, məni özlərinə qoşmaqda məqsəd kəndin itlərindən qorunmaq idi.

Fikirləri bu imiş ki, əvvəlcə Korayıl kəndinə getmək, Aslan müəllimin dədə-baba yurduna baş çəkib və oradan da qayıdıb İsmayıl dayının Kosalar kənd qəbiristanlığında uyuyan ata-anasının, Həmidə bacının qəbirlərini ziyarət etsinlər.

Pambıq kolları bir qarış boyu uzanmışdı. Üçüncü, ya dördüncü alaq işləri gedirdi. Gah uzaqdan, gah da yaxınlarda kultivasiya çəkən traktorların səsi bir-birinə qarışmışdı. Arvad-uşaq çöllərə səpələnib hərə öz hektarında ketmən işi ilə məşğul idi.

Biz "Qara ağacın yanı" deyilən sahəyə çatanda arxın o üzündə, pambıq tarlasının içində bir gəlin ketmən vururdu. İsmayıl dayı qəfil ayaq saxlayıb bu gəlinə çox diqqətlə baxdı. Bu an elə bil gəlinə kimsə pıçıldadı ki, çevril bir arxaya bax ...gəlin özünü itirdiyindən ketmənin sapı əlindən üzülüb yerə düşdü. İsmayıl dayının rəngi birdən avazıdı. Qəfil də rəngdən-rəngə düşdü... Gəlinin başında yaylıqlı şal, rəngi tamam solmuş paltar var idi... Bütün günü İsmayıl dayının eyni açılmadı. Ara-sıra isə yanındakılara:

- Kaş onu belə görməyəydim - dedi.

Sonralar mənə bəlli oldu ki, həmin gəlin İsmayıl dayının ürəkdən sevdiyi ilk istəklisi imiş...



## Sən demə...

Qohumlardan birinin 2-ci Şıxlı kənd qəbiristanlığında dəfn günü idi. İsmayıl dayı da bu dəfndə iştirak edirdi. Dəfndən sonra yaxın qohumu Arif Şıxlinskiyə üz tutub:

- Köhnə dədə-baba qəbiristanlığını da yad edək - dedi.

Köhnə qəbiristanlığın məzar daşlarının hamısı bir boyda, qırmızı, sərt daşlar idi. O, qəbir daşlarının ən ucası və görkəmlisi ilə seçilən birisinin qarşısında dayanıb uzun-uzadı nəzərlərini ondan çəkmədi və elə bil burada nəyisə açıq-aydın görürdü...

Sən demə, bu qəbirdə "Dəli Kür" romanının gələcək qəhrəmanı, babası Cahandar ağa uyuyurmuş.

## Gədalardan yox

Məktəblərdə, müəssisələrdə "Dəli Kür" romanının jurnal variantının müzakirəsi keçirilirdi. Əksər hallarda roman müəllifinin özünü də dəvət edirdilər. Belə bir görüş Əmircan qəsəbəsinin mədəniyyət sarayında da keçirilirdi.

Romanın ədəbi aləmə bir yenilik gətirməsində, yaxşı xüsusiyyətlərindən çox az danışıldı.

Elə bil əvvəlcədən planlaşdırılmış qaydada çıxış edənlər birbaşa hücuma keçir, Cahandar ağa obrazını tənqid atəşinə tuturdular. Bu obrazın mənəm-mənəmliyi indiki quruluşumuza ziddir və gənclərin vətənpərvərlik hissinə yaddır - deyirdilər. Belə bir əsərin yaranmasında nəsli də, kökü də ağa, bəy olan müəllifi günahlandırırdılar və açıq-açığına onun qanının hələ durulmadığını vurğulayırdılar.

Məktəbli bir qız isə çıxışlardan qəzəblənmiş kimi, söz alıb tribunaya qalxdı və belə dedi:

- İndi mənim sevincimin həddi-hüdudu yoxdur. "Dəli Kür" romanına qədər mən elə bilirdim ki, mənim babalarım kütbeyin, avam və fəqir-füqara novruzəlilər, yalançı, ikiüzlü və yaltaq qurbanəlilər olmuşlar. Sən demə, heç də belə deyilmiş. Mənim Cahandar ağa kimi sözübütöv, kişilərin kişisi babam var. Bunu indiyədək bizlərdən gizlədənlərə ar olsun!

Salonda gurultu qopdu. Gənclər həmin qızın səsinə səs verdilər.

Qəribə bir təlatüm yarandı.

İsmayıl dayı müəllif kimi söz alıb tribunaya qalxdı və təmkinlə dilləndi:

- Bəli! Bizdə olan ən yaxşı nə varsa, məhz agalardan, bəylərdən gəlib, gədalardan yox - dedi və tribunadan düşüb salonu tərk etdi.

## ...Siz qorumalısınız

İsti yay günlərinin birində İsmayıl dayı kəndə gəlmişdi. Həyətdə əyləşmişdik. Həmişə olduğu kimi, qohum-əqrəba başına toplaşmışdı. Qəflətən işıqlar söndü. Ay hələ doğmamışdı. Ətraf zülmət qaranlıq idi. Bu vaxt İsmayıl dayı mənə:

- Heydər, get, maşından əl fənərimi gətir - dedi.

Xidməti maşın həyətdə idi. Mən qeyri-ixtiyarı maşın səmtə baxıb ani duruxdum və ondan sual edib:

- Batareyanımı deyirsiniz? - dedim.

İsmayıl dayı gecdən-gecə, amma bir qədər sərt:

- Hə, batareyanı deyirəm, get onu gətir.

Mən batareyanı gətirib ona sarı uzadanda, ayağa durub ehmalca sol qolumdan tutdu və arxasınca çəkdi, adamlardan uzaqlaşdırıb, ayaq saxladı və sakit, amiranə bir səslə:

- Yadında qalsın. Yazıçının vəzifəsi təkcə yazıb-yaratmaq deyil. Onun ən başlıca amalı ana dilimizin saflığını qorumaq, yad sözlərdən təmizləməkdir. Bununla bərabər, yaddan çıxmış xalq deyimlərini, doğma ifadələrimizi yenidən ədəbiyyata gətirməkdən ibarət olmalıdır. Əgər buna (əlindəki əl fənərini göstərib) başqası da batareya deyir, sən də deyirsənsə, onda yazıçılığa, sözün əsl mənasında, doğma dilimizə xidmətin harada qaldı? Dilimizi siz qorumalısınız.

...Üzürxahlıq etdim.

## Yad edək

Onun iş otağında, elə yazı masasına söykənəcəkli kiçik bir masa da vardı. Bu masanın xeyli hissəsini növ-növ, bir-birindən qəşəng qəlyanlar bəzəyirdi. Hər biri İsmayıl dayının yaxın-uzaq səfərlərdən alıb-gətirdiyi qəlyanlar idi. Xüsusi kisələrdə qoyulmuş saçaq-saçaq tənbəkilər də bu masanın üstündə qərar tutmuşdu. Hərdən yazı masasının arxasından durub bu qəlyanlardan birini əlinə götürər, odluğuna tənbəki basa-basa öz-özünə danışırmış kimi: - İndi də köhnə kişiləri yad edək, - deyərdi.

Qəlyan sümürə-sümürə gah geniş pəncərədən Xəzəri seyr edər, gah da içəridə ağır-ağır var-gəl edərdi.

**Heydər QASIMLI**